

İLHAM QAZAXLI

## Haqqımız yox, millət kimi Qarabağsız yaşamağa

Gör, nə vaxtdır xain düşmən od ələyir başımıza,
Zaman-zaman bəd niyyətlə zəhər qatır aşımıza,
Sahib çıxır, çeşməmizə, dağımıza, daşımıza,
Haqqımız yox, dövlət kimi məğlub adı daşımağa,
Haqqımız yox, millət kimi Qarabağsız yaşamağa!!!

Işğal olan torpağımdan qaçqın düşüb elim, obam,
Inildəyir tapdaq altda, cənnət Şuşam, mərd Topxanam,
Laçın, Qubadlı, Zəngilan, Ağdam, Füzuli - qəmxanam,
Haqqımız yox, dövət kimi məğlub adı daşımağa,
Haqqımız yox, millət kimi Qarabağsız yaşamağa!!!

Hər gün qara qan süzülür açıq qalan yaramızdan,
Ana Vətən, ana torpaq qeyrət umur hamımızdan,
Keçməliyik Vətən üçün qanımızdan, canımızdan,
Haqqımız yox, dövlət kimi məğlub adı daşımağa,
Haqqımız yox, millət kimi Qarabağsız yaşamağa!!!

Mərd oğullar qaçmadılar topun, tankın qabağından,
Atıldılar döyüşlərə, öpüb üç rəng bayrağımdan,
Qurtardılar xalqımızı imperiya caynağından,
Haqqımız yox, dövlət kimi məğlub adı daşımağa,
Haqqımız yox, millət kimi Qarabağsız yaşamağa!!!

Vətən bizə babalardan qalan miras, əmanətdir,
Haqq yolunda şəhid olmaq, ən şərəfli ibadətdir,
Şəhidlərin şücaəti hamımıza bir ibrətdir,
Haqqımız yox, dövlət kimi məğlub adı daşımağa,
Haqqımız yox, millət kimi Qarabağsız yaşamağa!!!

Yer titrəyir, göy titrəyir qəlblərdəki nisgillərə,
Calayırıq günü-günə, ili-ilə, fəsilləri fəsillərə,
Cavabdehik bizdən sonra gələn bütün nəsillərə,
Haqqımız yox, dövlət kimi məğlub adı daşımağa,
Haqqımız yox, millət kimi Qarabağsız yaşamağa!!!

Qazaxlıyam, istəmirəm torpağımda gəzsin yağı,
Torpağıma sahib çıxıb, qəlbimizə çəksin dağı,
Almalıyıq düşmənlərdən cənnət yurdum Qarabağı,
Haqqımız yox, dövlət kimi məğlub adı daşımağa,
Haqqımız yox, millət kimi Qarabağsız yaşamağa!!!

## Dahi Sabirə ithaf

***"Mən belə əsrarı qana bilmirəm,***
***Qanmaz olub da dayana bilmirəm..."***
***M.Ə.Sabir.***

Qələmin od elədi nadanların başına,
Dedin, bəlkə cahillər əməlindən daşına,
Kimsə məhəl qoymadı sənin bu təlaşına,
Nə demişdin - hamısı təsdiqin tapdı bir-bir,
Rəhmət sənə, min rəhmət, ey müdrik, dahi - Sabir!

Müftəxoru-əyyaşı satiranla daşladın,
Qələmini rüşvətxor - mollalara tuşladın,
Ömrün gözəl çağında - baharında qışladın,
Hər vuranda tək gəldi.., yixdı bizi "tək səbir",
Rəhmət sənə, min rəhmət, ey müdrik, dahi - Sabir!

Qamçıladın durmadan vicdanı murdarları,
Haqqa dəvət eylədin, nəfsi, gözü darları,
Daima rüsvay etdin, hoqqabaz dindarları,
Mövhumatı yıxmağa görmədi xalq bir tədbir,
Rəhmət sənə, min rəhmət, ey müdrik, dahi - Sabir!

Haqq səsini car etdin, duymadılar səsini,
Sındırdın qələminlə avamliq qəfəsini,
Satiraya gətirdin öz yeni nəfəsini,
Qorxutmadı gözünü nə edam, nə də Sibir,
Rəhmət sənə, min rəhmət, ey müdrik, dahi - Sabir!

"Pendir istədi tülkü, qarğadan quyruq qısıb",
"Oxutmuram, əl çəkin"- söylədi avam kasıb,
"Millət tarac" olsa da, o vaxtdan hamı susub,
Susmağıyla bu millət qazdı özünə qəbir,
Rəhmət sənə, min rəhmət, ey müdrik dahi - Sabir!

Bu yuxulu millətə qalib gəldi istibdad,
Biganəlik törətdi sonda, gör neçə fəsad,
Qazaxlı rəhmət dilər, sənə ey böyük ustad,
Daha bu cəmiyyətə tənqid də kar eləmir,
Rəhmət sənə, min rəhmət, ey müdrik, dahi - Sabir!

## *SEVİRƏM DÜNYANI OLDUĞU KİMİ*

Bu da bir yazıdır bəxtimə düşən,
Həyat gözlərimdə bir yuxu kimi.
Bağlansam kədərə nədir dəyişən?!
Sevirəm dünyanı olduğu kimi.

Gənclik təravətim solsa da belə,
Gözlərim qəhərdən dolsa da belə,
Saçıma ağ dəni salsa da belə,
Sevirəm dünyanı olduğu kimi.

Əvvəli müəmma, sonu müəmma,
Oğulsan, başına dönmə, dolanma,
Yorsa da, üzsə də, sıxsa da.., amma,
Sevirəm dünyanı olduğu kimi.

Yollar hamar olmur, qabarır, çökür,
Yaşıl yarpağı da küləklər tökür,
Şükür bu günümə, min kərə şükür,
Sevirəm dünyanı olduğu kimi.

İLHAMAM, tükənməz, coşan təbim var,
Sevgiylə döyünən, daşan qəlbim var,
Poladtək iradəm, böyük səbrim var,
Sevirəm dünyanı olduğu kimi.

## *Ş A İ R L Ə R*

Şeiriylə bəzər könül mülkünü,
Xəyal dənizində üzər şairlər.
Qəlbinin hissini, ruhun hökmünü,
Yazar, misralara düzər şairlər.

Sözə hünər verər, sözlə ucalar,
Haqqa sığınaraq, haqdan güc alar.
Sacına dən düşər, vaxtsız qocalar,
Hər yaşda məhəbbət gəzər şairlər.

Qələmi dost bilər, təbini həmdəm,
Ilham çeşməsində durular hərdəm.
Başında min fikir, əlində qələm,
Duyğu qanadında süzər şairlər.

Vurar aylar, illər ömrünə qamçı,
Süzülər varağa söz damcı-damcı.
Şeir olar dövləti, varı, qazancı,
Haqsızlıq görəndə küsər şairlər.

Bəsləyər qəlbində min arzu-istək,
Qayğısı yüz olar, sevinci tək-tək.
Əyilməz, qürurlu, məğrur qalatək,
Hər zülmə-əzaba dözər şairlər..!

Qazaxlı, şairlik bir sirrdir, özü,
Yolu haqq yoludur, hikmətdir sözü.
Bəşərə vurğundur urəyi, gözü,
Dünyanı söz ilə bəzər şairlər...

## *MƏNİ BU HƏYATA SEVGİ BAĞLADI*

Göz açıb dünyaya gəldiyim gündən,
Bir gözüm gülsə də, biri ağladı.
Nə qədər əzablar çəksəm də belə,
Məni bu həyata sevgi bağladı.

Bəslədim qəlbimdə xoş arzu, niyyət,
Yad oldu qəlbimə həsəd, kin, nifrət.
Ruhumu oxşadı sevgi, məhəbbət,
Məni bu həyata sevgi bağladı.

Aşiq bülbül oldum sevda bağında,
Cəh-cəh vurdum qonub eşq budağında.
Vüsala yetişdim bahar çağında,
Məni bu həyata sevgi bağladı.

Güclü iradəmlə aşdım sədləri,
Qoymadım yaxına qüssə-dərdləri.
Özümə dost bidim dürüst, mərdləri,
Məni bu həyata sevgi bağladı.

Yolumu azmadım, əhdə düz oldum,
Nə özümdən razı, nə aciz oldum.
Könüllərdə nəğmə, dildə söz oldum,
Məni bu həyata sevgi bağladı.

İlhamam, borcluyam qələmə, sözə,
Sevgidə görmüşəm neçə möcüzə.
A dostlar, açıram sirrimi sizə,
Məni bu həyata sevgi bağladı.

## *SALAM OLSUN*

Dərdi atıb bir kənara,
Gülənlərə salam olsun.
Sevincini dostlar ilə,
Bölənlərə - salam olsun!

Gəlib çatıb çətin dövran,
Sınaqdadır insan hər an.
Məhəbbəti dərdə dərman,
Bilənlərə - salam olsun!

İnsan ömrü bənzər çaya,
Yön almaz eyni məcraya.
Saf diləklə bu dünyaya,
Gələnlərə - salam olsun!

Ürəyində yurd həsrəti,
Qəriblik tale - qisməti.
Göz yaşlarını xəlvəti,
Silənlərə - salam olsun!

Qazaxlı, yaşanan yazı,
Yazılana yoxdu pozu,
Qəlbində xoş niyyət, arzu,
Olanlara - salam olsun!

## *İSTƏDİM*

Camalını görən gündən,
Nə Günəş, nə Ay istədim.
Əl açaraq İlahidən,
Səni ömrə pay istədim.

Qərq olurdu dərddən gəmim,
Baxışında itdi qəmim.
Baş qaldırdı sevgi dəmim,
Tənha qəlbə tay istədim.

Gülüşündən nurlandı göz,
Dodağında bal oldu söz.
Hicran dedi, bir az da döz,
Vüsal həftə, ay istədi.

Təzələdim yaddaşımı,
Atdım qüssə-qəm daşını.
Sinənə qoyub başımı,
Ruhuma lay-lay istədim.

Qazaxlı vurğundur qaşa,
Zülfün, xalın bir tamaşa.
Vida edib fəsli qışa,
Ömrü bahar, yay istədim.

## *GEDİRƏM HAQQA DOĞRU*

Hey baxıram yollara,
Yolun sonu görünmür
Gücdən düşmüş ürəyim,
Əvvəlki tək döyünmür.

Uçub gedən gəncliyim,
Qayıdıb gəlməz daha.
Qalmayıbdır bir seçim,
Həyat ölümdən baha.

Ömrün qəmli günləri,
Xəbər verir payızdan.
Qorxmur ürəyim artıq,
Soyuq, şaxta, ayazdan.

Təsəllim budur yalnız,
Son qoyam qəmə-aha.
Gedirəm haqqa doğru,
Yol uzanır Allaha....